**«Nə olsun» sualına cavab verin.** Oxucu anlamalıdır ki, bu informasiya ona nə üçün lazımdır. Bunu bilmək niyə vacibdir? Məişət tullantıları zavodu tikirlər, nə olsun?

## İcra başçısının nə dediyini **niyə oxumalıyıq?**

*Məsələn, çünki*

– «Allaha şükür, zavodu mənim nə evimin, nə də bağımın yanında tikmirlər».

– «Dəhşət! Zavodu mənim evimin yanında tikirlər! Orada mənim yayda dincəlməyə getdiyim bağım var!».

– «Məni narahat edən odur ki, hökumət istədiyi vaxt mənim də evimin yanında belə çirkli istehsalat obyekti tikə bilər».

MƏTN: 15 fevral 2017-ci il tarixində || icra başçısı || bildirib ki, məişət tullantıları zavodunun tikintisi üçün yer müəyyən olunub və bu, Təzəkənd inzibati-ərazi dairəsində Məmmədli kəndidir. || İcra başçısı bunu «Cəsurlar» klubunda || uşaqlar və onların valideynləri ilə görüşdə, sakinlərdən birinin zavodun harada tikiləcəyi barəsində sualına cavab verərkən deyib. || İcra başçısı bu zavodun rayon üçün həyati əhəmiyyətə malik olduğunu hesab edir, çünki «günü-gündən abadlaşan rayonda» zibil məsələsi birdəfəlik həll olunmalıdır. Məmmədli kəndi zavodun tikintisi üçün yeganə münasib yerdir. Zavodun hansı ərazidə tikiləcəyini iki ilə qərar veriblər. || Məmmədli kəndinin ərazisində bağ sahələri var, amma istənilən halda zavod orada tikiləcək. Zavodun hansı ərazidə tikiləcəyini iki ilə qərar veriblər. *Və?*